# Yarımçıq ömrün balladası



O qeyri-adi istedada malik sənətkar idi. Azərbaycanda caz musiqisinin əsasını qoymuş, onu inkişaf etdirmişdir. Muğamla cazın sintezini yaratmışdır...

Vaqif Mustafazadə - 70

Dəyərli oxucularımız təbii ki, söhbətimizin bu günlər 70 illik yubileyini keçirdiyimiz dahi caz ustası, bəstəkar Vaqif Mustafazadədən getdiyini anlamamış deyillər.

Azərbaycan klassik cazının banisi Vaqif Əziz oğlu Mustafazadə 1940-cı ildə anadan olub. A.Zeynallı adına Bakı Musiqi Məktəbini bitirib. Tbilisi Dövlət Filarmoniyasında "Qafqaz" adlı caz-trio yaradıb, Azərbaycan Dövlət Estrada Orkestrinin solist-pianoçusu olub. "Sevil" vokal-instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik edib. Yalnız Azərbaycanda deyil, ölkənin hüdudlarından kənarda da populyar olub.

"Tallin-66", "Tallin-67", "Tbilisi-78" caz festivallarının laureatı, VIII Beynəlxalq Montekarlo caz müsabiqəsinin qalibidir. Neçə-neçə xalq mahnılarını yenidən işləyib, çoxsaylı kompozisiyaların müəllifi olub. T.Kuraşvili, C.Caparidze (hər ikisi Gürcüstan), Q.Lunyakov (Rusiya), R.Babayev (Azərbaycan), Yoxanson (İsveç), X.Yankovski (Almaniya), Velis Konover Bi-Bi-Kinq (ABS) və başqa böyük musiqi xadimləri ilə ünsiyyət yaradıcılığında təsirsiz ötüşməyib.

Azərbaycan musiqi sənətində yeni bir mərhələnin əsasını qoyan, onu respublika çərçivəsindən çıxarıb dünyaya tanıdan və yaxınlı-uzaqlı əhatəsinə bir addım da yaxınlaşdıran əfsanəvi Vaqif Mustafazadə haqqında ensiklopedik nəşrlərdə verilən bu məlumat kifayət qədər ətraflı, dəqiq olsa da, onu tanıyanlara, sənətinin qiymətini bilənlərə son dərəcə quru görünür.

Həqiqətən də belədir. Axı hansısa soyuq rəqəmlər, adlar öz dövründə, çağdaş zamanında ümumi fondan seçilməyi bacaranlar və öz millətini bütün dünyaya təqdim etmək istedadına və mədəniyyətinə malik olan insanlar haqqında, o cümlədən, Vaqif Mustafazadə haqqında nə deyə bilər? Hansı isti mənzərəni, təəssüratı oyada bilər? Bu işi yalnız yaddaşlarda üfürülə-üfürülə qorunub saxlanılan və yeri düşdükcə paylaşdırılan xatirələr, eləcə də öz xatirələri, yadigarları edə bilər. Başlayaq elə özündən.

*"Salam, əziz ana. Özünü necə hiss edirsən? Pulu elə həmin gün də aldım. Çox razıyam. Çox sağ ol, ana. Sənin üçün darıxıram, tez-tez xatırlayıram. Özümü əla hiss edirəm. Ana, mütləq gəl. Ev sahibinə 15 manat vermişəm, özümdə 25 manat*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

***qalıb. Bu, 5 günə çatar, bəs qalan 10 günü neyləyim? Anacan, mənə 40 manat da göndər, hər gün 4 manat xərcləsəm, 10 günümə bəs edər. Çalışaram qənaət edim. Noyabrın 2-də gecə sənə zəng edəcəm, onda deyərsən nə vaxt gəlirsən. Ürəkdən öpürəm. Sənin Vaqifin. Oktyabr, 1965-ci il, Moskva".***

Bu, oxumağı yazmaqdan daha çox sevən Vaqif Mustafazadənin anasına ünvanladığı birinci məktubudur. Ev-muzeyində qorunub saxlanılan ikinci məktubunu, yenə də anasına, Vaqif Mustafazadə bir də on ildən sonra yazıb.

Birinci məktubla ikinci arasında kifayət qədər böyük və əhəmiyyətli hadisələr baş vermişdi. O artıq evlənmişdi, qızı Əzizə dünyaya gəlmişdi və yavaş-yavaş, incidilə-incidilə yaratmışdı...

***"Salam, ana! Əminik ki, sən özünü əla hiss edirsən. Yəqin yenə cavanlaşmısan. Elza, Əzizə və mən səni hər gün xatırlayırıq. Biz çayın lap yaxınlığında yaşayırıq, hər gün çimirik. Hər gün toyuq yeyirik, təmiz inək südü içirik, bir sözlə, istirahətimiz əla keçir. Hamımız kökəlmişik. Əzizə sənin üçün bərk darıxır və tez-tez "mən nənəmi istəyirəm" deyir. Hamımız səndən ötrü darıxırıq. Səni öpürük. Növbəti görüşədək!".***

Vaqif Mustafazadənin anası Zivər xanım Əliyeva oğlunun həyatında olduqca böyük, əsaslı rol oynayıb. Onun ilk müəllimi, ustadı olub Zivər xanım. Başqa cür ola da bilməzdi.

Zivər Əliyeva Azərbaycanın məşhur neft istehsalçısı Ə.Əlyevin qızı olub. Mənşəcə alman olan tərbiyəçisi ona xüsusi bilgi verib. Sovet hakimiyyəti qurulduqdan sonra milyonçu atası müflis olur və uşaqlarının ali təhsil alması xatirinə Bakı Dənizçilik Məktəbində qara fəhlə kimi işə düzəlir. Məlumdur ki, həmin vaxtlarda ali məktəblərə yalnız fəhlələrin uşaqlarını qəbul edirdilər.

Atasının arzusu yerinə yetir. Zivər xanım konservatoriyaya daxil olur və Üzeyir Hacıbəyovun ilk tələbələrindən biri kimi tarixə düşür. Bu, əbədilik belə olur. Zivər xanım ömrü boyu musiqi məktəbində çalışıb, bildiklərini tələbələrinə öyrədib. Zivər xanım yeganə oğlunu hədsiz dərəcədə sevib. Vaqifin dostları, tanışları indi də xatırlayırlar. Oğlu Tbilisidə, Moskvada işləyəndə Zivər xanım plov, dolma dolu qazanlarla ona tez-tez baş çəkir, oğlunu xiffət etməyə qoymurdu.

Əlbəttə, Vaqif onun həm oğlu, həm də ilk tələbəsi idi axı...

Vaqif Mustafazadə anasının dərs dediyi musiqi məktəbində təhsil alıb. Qeyri-adi yaddaşa və musiqi duyumuna malik bu oğlanın başqa bir sənət seçməsi mümkünsüzdü. O, mütləq və mütləq musiqiçi olmalı, anasının sənətini davam etdirməli idi. Bu oğlanın yaradıcılıq istiqamətləri və tarixi faktlar göstərirdi ki, Vaqif Mustafazadə bütün iliyinədək əsl musiqiçi idi.

Amma hər şey gözlənilənlərin əksinə oldu. Vaqif çoxlarının zənn etdiyi kimi, nə klassik musiqini seçdi, nə də muğamı. O, cazı seçdi. Milli cazı - tarixdə zənci musiqisi kimi başlanğıc götürmüş cazın doğma muğamla sintezini yaratdı. Bu, bütövlükdə Azərbaycan musiqisində əsl inqilab idi. Bu inqilab şərəfli olduğu qədər də çox çətin, olduqca çətin başa gəldi. Demək olar ki, hamı - onu tanıyanlar da, tanımayanlar da, sənətinə bələd olanlar da, olmayanlar da Vaqifə bu yoldan çəkinməyi və "daha ciddi" bir işlə məşğul olmağı məsləhət bilirdilər. Əksəriyyət, yeri düşdü-düşmədi, ona məsləhət verir, yol göstərir, böyük gələcəyə malik musiqiçi olmasından, cazla özünü məhv edəcəyindən danışır və "düzgün yola" qayıtmağı tövsiyə edirdi.

Tarixi hadisələrin düzülüşü göstərir ki, Vaqif bir müddət əhatə dairəsindən çıxa bilmir və deyilənlərə əməl edərək, cazı bir tərəfə qoyub klassik təhsilini artırmaq üçün 1964-cü ildə konservatoriyaya daxil olur. Amma əbəs yerə... İçəridən gələn, öz oduna, istisinə alovlanan ocağı söndürmək qeyri-mümkün idi. O, mütləq üzə çıxmalı, özündən xəbər verməlidir. Verir də. Konservatoriya təhsilinin ömrü bir il çəkir. Vaqif Mustafazadə Bakıda hər şeyi atıb Tbilisiyə - "Orero" qrupunu yaratmaq üçün gedir. Yeri gəlmişkən, ansambllarla işləmək, qruplar yaratmaq Vaqif Mustafazadənin həyatında təsadüfi xarakter daşımır. O həm də milli musiqi tarixinə bir neçə maraqlı ansamblların yaradıcısı kimi düşüb. Onun ilk ansamblı, Cürcüstanda yaratdığı "Qafqaz"ın ayağı yüngül imiş. Üstündən azacıq keçmiş, 1970-ci ildə Vaqif Mustafazadə Bakıda vokal-instrumental ansamblı - "Leyli"ni, bir il sonra isə "Sevil"i yaradır.

Təsadüfi deyil ki, Vaqif Mustafazadənin, demək olar ki, hər bir uğurunu xoşagəlməz hadisələr, məqamlar əhatələyir. Amma heç bir bədlik bu insanın içində qaynayan sənəti, inqilabı susdurmağa qadir deyildi. 60-cı illərin ortalarından başlayaraq, Azərbaycandan kənarda keçirilən caz festivallarından mükafatçı, laureat kimi qayıdan Vaqif Mustafazadəni öz ölkəsində yalnız bundan sonra qiymətləndirməyə, ən azı, dinləməyə başlayırlar. Nəhayət, onu - milli cazın yaradıcısı olan Vaqif Mustafazadəni öz ölkəsində də görürlər: Bakıda keçirilən "Caz-69" festivalı onun sənətinin dəyərini verir. Bu qələbəsi Vaqif Mustafazadəni öz ölkəsinə gətirir və işlə təmin edir. Həmin ilə qədər Vaqif Tbilisidə işləyirdi. Yalnız bundan sonra Bakıda Azərbaycan Dövlət Estrada Orkestrində ona iş verirlər. 1977-ci il isə Vaqifin bundan daha artığına layiq olduğunu göstərir. Donetskdə keçirilən Ümumittifaq Caz Festivalında Vaqif laureat adını qazanır. Uğurlar sanki sapa düzülür. Bir il sonra Tbilisidəki caz festivalında ən yaxşı pianoçu kimi uğur əldə edir. Bir il də keçir və o, bu dəfə də Monakoda təşkil edilən beynəlxalq caz festivalının birinci mükafatı olan Ağ royalı öz ölkəsinə - Azərbaycana gətirmək hüququ qazanır. Amma sovetlərdəki mövcud rejim buna imkan vermir - royal pul dəyərində hesablanıb Azərbaycana göndərilir. Bu, o illər idi ki, Vaqif ideya, yaradıcılıq imkanları ilə zəngin və həvəsli idi. Əgər əcəl imkan versəydi...

Əcəl Vaqif Mustafazadəni 1979-cu ildə o, "Muğam" ansamblı ilə birgə Daşkənd səhnəsində konsert verən zaman tapır.

Onun səhnədə vəfat etməsi, bu dünya ilə belə bir şəraitdə vidalaşması qətiyyən təəccüblü görünmür. Əksinə, öz sənətində belə bir tarixi başlanğıcın əsasını qoymuş, böyüklüyünü sağlığında təsdiqləmiş və sübut etmiş bir adamın başqa bir şəraitdə ölməsi qəribə gələ bilərdi.

Vaqif Mustafazadənin yarımçıq ömür balladasını burada da tamamlamaq olar. Amma bu gün də onun musiqisinin tanınmaqda davam etməsi və eyni zamanda Azərbaycanı da tanıtmasının üstündən keçmək, ən azı, ədalətsizlik olardı. Vaqif Mustafazadə bir başqa formada, məzmunda bu gün də yaşayır - qızları Lalə və Əzizənin sənətində.

Onun birinci nikahından olan Lalə Mustafazadə 1990-1 991-ci illərdə Fransada keçirilən pianoçuların beynəlxalq müsabiqəsinin ən ali mükafatını - "Qran-pri"ni qazanır. Klassik musiqini seçmiş Lalə Mustafazadə hazırda Paris Konservatoriyasında çalışır.

Əzizə isə atasının yolu ilə gedir - cazı seçir.

1997-ci ildə Kuin Elizabet Xoltdakı konsertdə Əzizə Mustafazadə həm pianoçu, həm müğənni, həm də bəstəkar kimi "Caz kraliçası" adına layiq görülür. Atasının genləri bir daha öz qüdrətini göstərir - Əzizə indiyədək öz tacını heç kimə verməyib...

**Elmira HƏSƏNQIZI**



**Əlçatmaz, ünyetməz, qayğısız atalı günlər...**